# Quzey Azərbaycan'da Cimhurrəyisi seçgiləri

# قۇزئي آذەربايجاندا جيمهۇر رەييسي سئچگيلری

çalışmaq demkdir. orada paylaşacaq bir şey yoxdur. çűnkű dövlətin özűnűn pulu parasi yoxdur. olan pul - sərvət millətinkidir. bircə tűmən - bircə manataı qarşısında hakimiyyətdə olanlar məsuliyyət daşıyırlar.
Azərbaycan'da gedən seçgiləri nəzarət edən gözləmcilərə görə bu qeyd edilən sahədədə műsbət bir şey təsbit edə bilməmişlər. Hakimiyyətdə olanlar,və hakimiyyətə can atan firqələr ölkənin idarəsi űçűn doğru - dűzgűn bir program göstərməmişlər. Ölkəmizin ən acil məsələlərindən olan Işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi haqda kəsin qərar, yoxsulluğun - işsizliğın ortadan qaldırılmıası, iqtisadi dirçəlişi űçűn bir iş programı ortaya qoyulmamışlardır. Işğal olunmuş ərazilərin necə , nə vaxt azad edilməsi haqda danışmamaq Azərbaycana , azərbaycan millətinə xəyanətdən başqa bir şey deyildir. çűnkű bizim bu anda hər bir şeydən űstűn və başda gələn və bir an əvvəl hərnə bahasına həl edilməsi gərəkən iş bűtűn işğal olunmuş ərazilərin azad edilməsidir. ermənilərin istatűsű azərbaycanın tarixi əraziləri çərçivəsində dűşűnűlməlidir. movcud qondarma ermənistan rus műstəmləkəçiliyinin məhsuludur. umum azərbaycan milləti tərəfindən qəbul ediləcək bir vaqeiyyət deyildir.
Hərkəs hakimiyyətə gəlirsə - gəlsin bu işğal olunmuş ərazilər məsələsini həl edə bilmirsə həmən hakimiyyəti buraxmalıdır. hakiməyyət dədə - nənə malı deyildir. siyasətə vəraslik diyə bir şey yoxdur. Muxalifətdə olmaq , hakiməyyətdə olmamaq da dűşmən kəsilmək , hər götűrűlən addıma qarşı çıxmaq mənasına gəlmir. Demokratik ölkə olmanın ana prənsiblərindən biri hakimiyyətdə olanlarla - olmıyanlarin(muxalifətin) diyaloqudur. bu demokrasıda vacib və zəruri işlərdəndir. Yaman demk- söyűş vermək , təhqir etmək , əl qaldırmaq məntiqsizliyin, cəhalətin , diktator dűşűncə tərzinin göstərisidir.
Demokratik ölkələrdə seçgi komitələri , seçgilərə qatılan butun firqələrin(partıların) təmsilcilərinin iştiraki ilə meydana gəlir. seçgi mərkəzlərində tərəfsiz insanlar otururlar, seçgi gözləmciləri tərəfindən də kontrol edilirlər. Haman şəkildədə verilən səslər sayılaraq nəticə elan edilir. seçgiləri qazanan hər kəs olursa - olsun mədəni şəkildə seçgini qazanmayan firqələr tərəfindən təbrik edilir. və mədəni şəkildə yetərli səs əldə etmədiklərini qəbul edirlər. və gələcək seçgilər űçűn xalqın qəbul edəcəyi iş programlari hazirlamağa çalışırlar. və qazananın gördűyű işləri kontrol edib dəyərləndirməyə çalışırlar.
Oktobrun 16 - sinda quzey Azərbaycanda aparılan seçgilərdə bu qanun - qayadada riayət olunmamışdır. Bunu Azərbaycana gedən xarici gözləmcilər də təyid edirlər.
Etiraz və mitinglər hər Azərbaycan vətəndaşının haqıdır. Bu ancaq ölkə yasalarının çərçivəsi daxilində olmalıdır. Dűnyanın heç bir demokratik ölkəsində icazəsiz miting və göstəriyə icazə verilməz. hər kəs istədiyi yerdə də miting geçirmə haqı yoxdur. dövlət dayirələri tərəfindən mitinqin geçiriləcəyi yer göstərilir.
Azərbaycanda hakimiyyətdə olmıyanların(muxalifətin)da mitinq və etiraz haqları vardır. belə göstərilərdə etirazçıların - göstəricilərin və göstərinin - mitinqin əmniyyətini özləri kontrol edib, əmniyyət quvvələrinə yardımcı olamalıdırlar. belə göstərilərə dűşmənlərimiz olan Rus, Erməni və Iran rejiminin casuslarının qatılmasına , provokasiyonlar törətmələrinə icazə verilməməlidir. seçgilərə etiraz etmə mitinqində Tehran rejiminin casuslarının « Alla o əkbər « diyə bağırmalarının əmniyyət quvələrinin űstűnə daşla dəmir dəyənəklərlə həmləsi demokratik etiraz mitinqi ilə əlaqəsi yoxdur. Bu ancaq Muxalifət içində Təhranin şovonist , fondamentalist və műstəmləkəçi rejimi ilə bağlılıqlarin bir göstərgəsidir. Tehran rejimindən pul alanlar onunla las vuranlrın ovcunun açılmasıdır. biz indilik bu şəxsilərin adlarını çəkmək istəmirik. amma kimlər olduğunu yaxşı bilirik.
Əmniyyət quvələrinə gəldikdə onlarında vətəndaş űstűnə əl qaldırmaları, onları döyűb yaramaları qəbul edilməzdir. ölkəmizdə demokrasının gəlişməsi űçűn belə qanunsuz hərəkət edənlər hansı tərəfdə olursa- olsun tərəfsiz , açıq və umumi məhkəmələrdə muhakimə edilməlidirlər.
Oktobrun 16 sindaki seçgilər və vətəndaş muharibəsi kimi dűnya informasiya dayirələrində səslənən bu hadisələr Azərbaycanın dűnya ictimaiyyəti qarşısında abru və heysiyyətinə böyűk lətmə vurmuşdur. Biz Azərbaycanda qanun űstűnlűyűnűn , demokrasının gəlişməsinin , azərbaycan toplumunun şərqidə ən demokratik bir toplum olmasından yanayıq. Hakimiyyətdə olanlarla - olmıyanlar(muxalifət) arasında qarşı durma yox, diyaloqu zəruri görűrűk. Hər iki tərəfdə millət arasında dűşmənçiliyi - ədavəti təbliğ edib, bu yolda hərəkət edənlər azərbaycan vətəndaşı ola bilməzlər. çűnkű onlar bu əməlləri ilə millətimizin dűşmənlərinin dəyirmanına su tökűrlər. məxsusən ölkəmizi idarə edən şəxsilər öz əməllərini gözdən geçirməlidirlər.
Seçgilərə etiraz göstərilərində hər iki tərəfdə olan nifrət, kin və dűşmənçilik bir birinə qarşı yox , Erməni canilərinə qarşı yönəlmiş olsaydı, bugűn bir erməni belə Azərbaycan ərazilərində yşaya bilməzidi. Elə görűnűr ki , bizlər əsil dűşməni yaddan çıxardıb , öz içimizdə dűşmən axtarırıq. Hakimiyyətlər, kabinetlər, paralar, məqamlar gəlib - gedici şeylərdir. kimsəyə qalmamış və qalmıyacaqdır. Amma Azərbaycan adlı vətən yaşayacaq və yaşamalıdır. hər kəs bu ad qarşısında məsuliyyət daşıyır.

# آي ديل نه دئمکدير ؟

# Aydil nədeməkdir?

آي ديل يعني آنايۇردۇن ديلی ، ائلەجەده آلمانين ائسئن شهرۇنده کی آذه ربايجان کولتور اۇجاغي نين آديدير . البته بۇ شهرده ايکينجي کولتور اۇجاغي‌نين آديدا کولتور ائوی دير . آذه ربايجان کولتور ائوی نين بيرينجي ماده سينده يازيليرکی، بۇ کولتور ائوی يالنيز « ايران آذه ربايجاني نين » دير . بۇرادا بۇنۇ خاطيرلاتماق ايسته رديک کی ، ايران آذه ربايجاني دييه بير يئر يۇخدۇر . آذه ربايجانليلار مال ـ داوار دئييلديرلرکی بيريسی نين اۇلسۇن . بۇ آدي اۆزلرينه قۇيانلار اگر اۆزلريني اۇ سوييه‌يه ائنديرمک ايسته‌ييرلر ، اۇنلارا دييه‌جک بير سۆزوموز يۇخدۇر . بيزيم ميللتيميز اۇنلار کيمی نۆکرچيليغي ، باشقالاري نين بۇيۇندۇرۇغۇندا اۇلماغي قبۇل ائتميرلر . آورۇپادا ياشايان بۇ آغالار بۇنۇ بيلمه لری لازيمديرکی، اۇرانين آدي گۆنئي آذه ربايجاندير .

ائله بۇنا گۆره ده ايکينجي بير آذه ربايجان کولتور اۇجاغي يارادیلميش بۇ اۇ تايلي، بۇتايلي بوتون آذه ربايجانليلارا عاييددير . اۇرادا دانيشيلان ديل ايسه يالنيز آذه ربايجان تورکجه سيدير . بۇ اۇجاق قئيديياتدان کئچديکده ن سۆنرا ائسئن شهری نين خاريجيلر شۇراسي طرفينده ن ۱۸ ، ۱۰، ۲۰۰۳ تاريخينده بۇ شهريده کی کولتور شئنلي يينه دعوت ائديلميشدی. هر ايکی کولتور اۇجاقلاري اۇرادا اۆزلريني تانيتديريب، هر اۇجاق اۆزونه خاص آلاچيقدا ( چاديردا) سرگی دوزه نله ميشديلر . آي ديل گۆنئي وه قۇزئي آذه ربايجاندان چۆخلۇ فۆتۆ شکيللر ، کيتابلار وه اينفۆرماسييا بيلديريشلری نين يانيندا ساماوار قۇيۇب اۇرادا تاماشاچيلارا چاي و شيرنی ساتيلماقدا ايدی. سرگی‌ده اۇلان شکيللرده ن بيری سئيريجيلرين ديقتيۆنی چکمکده ايدی. بۇ شکيلين ياريسي باکي ، ياريسي ايسه تبريز وه اۇرتادا اۇلان آراز چايي ايدی. کئچميشده بئرلين دۇواريني خاطيرلادان بۇ شکيلين آلتيندا بۇ پارچالانميش وطن وه شهر حاقدا آلمان ديلينده معلۇمات وئريلمکده ايدی.

بۇ شهرده‌کی شئنليک آذه ربايجان مۇسيقی سی ايله باشلاييب ، اۇۆخۆجۇلاريميز چاليب اۇخۇدۇقدان سۆنرا . آذه ربايجانلي صنعتکاريميز صحنه يه چيخاراق ، بيزيم ميللی اۇيۇنلاريميزي (رقصلريميزی) گۆسترمه‌يه باشلاديلار . نهايتده بۇ شئنليکده ايشتيراک ائدەن يئرلی لره وه خاريجيلره بۇ شهرين مرکزينده ، آزاد هاوادا آلمان ديلينده آذه ربايجان حاقدا معلۇمات وئريلدی. بيز بۇ باجي ـ قارداشلاريميزا اۆز مينتدارليغيميزي بيلديريب، اۇنلارا اۆز ايشلرينده چۆخلۇ باشاريلار ديله ييريک.

# Açiqlama آچيقـــلامـــا

حۆرمتلي وطنداشلار !

بيز دونيا آذه ربايجانليلاري کۆنفئدراسييۆنۇ اۇلاراق ۲۰۰۳،۷،۵ تاريخينده « **دونيا آذهرباجانليلاري نين کۆنگۆره سی ـ داک** » لا امکداشليق حاقدا اعلان ائتدييميز

آردي ۴ ـ نجي صحيفه ده